# Heyvandarlığın inkişafına həsr olunmuş zona müşavirəsi

Noyabr ayının 19-də Qəbələdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə heyvandarlığın inkişafına həsr edilmiş zona müşavirəsi keçirilmişdir. Müşavirədə Qəbələ, Oğuz və İsmayıllı rayonlarından heyvandarlıqla məşğul olan fermerlər, süni mayalama və heyvandardıq mütəxəssisləri iştirak etmişdir.

Heyvandarlıq sahəsində prioritetlərin müəyyən edilməsi, damazlıq-seleksiya işlərinin yaxşılaşdırılması, yerlərdə heyvanların süni mayalandırılması işinin daha səmərəli təşkili məqsədilə zona baytarlıq laboratoriyalarının fəaliyyətinin genişləndirilməsi, heyvanların süni mayalandırılmasında istifadə olunan genetik materialın müəyinə edilməsi, yem istehsalının təşkili, bölgə üçün xarakterik olan heyvan xəstəliklərinə qarşı mübarizə tədbirlərinin aparılması və heyvandarlığın digər məsələləri ilə bağlı keçirilən zona müşavirəsini Qəbələ Rayon İcra Hakimiyyətinin baş mütəxəssisi Tahir Hacıyev açmışdı. O, müşavirənin əhəmiyyəti haqqında qısa məlumat vermiş və qonaqları rayon icra hakimiyyətinin rəhbərliyi adından salamlamış və ölkədə geniş və xüsusi əhəmiyyət kəsb edən tədbirin işinə müvəffəqiyyətlər arzulamışdır. Tahir Hacıyev giriş nitqində eyni zamanda sosial-iqtisadi inkişafa dair Dövlət Proqramlarına uyğun olaraq son 12 ildə Qəbələdə gedən geniş miqyaslı tikinti-quruculuq işləri haqqında yığıncaq iştirakçılarına məlumat verdi, eyni zamanda rayonda aqrar bölmədə həyata keçirilən islahatlardan, xüsusilə heyvandarlığın inkişafında və onun cins tərkibinin ən məhsuldar heyvanların hesabına yaxşılaşdırılmasında və heyvandarlıq təsərrüfatlarında mal-qaraya, davarlara göstərilən baytarlıq xidmətlərindən danışmışdır.



Zona müşavirəsində Kənd Təsərrüfatı Nazirliyi aparatının heyvandarlığın inkişafı şöbəsinin müdiri Qalib Əbdüləliyev çıxış edərək, 2015-ci ilin Azərbaycan Respublikasında «Kənd təsərrüfatı ili» elan edilməsi ilə bağlı qarşıda duran vəzifələrdən, heyvandarlığın intensiv metodlarla inkişaf etdirilməsi yollarından, heyvandarlıqda damazlıq-seleksiya işlərinin daha da yaxşılaşdırılması məqsədi ilə mütərəqqi texnologiyalardan, bu sahədə zona baytarlıq laboratoriyalarında işlərin mərkəzləşmiş qaydada təşkilindən ətraflı məlumat verdi.

Müşavirədə Qəbələ Zona Baytarlıq laboratoriyasının direktoru İmran Məhərrəmov «Heyvandarlıqda damazlıq işinin düzgün təşkili və süni mayalama tədbirlərinin yaxşılaşdırılması», Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu direktorunun müavini Füzuli Mirzəyev «Azərbaycanda mövcud olan heyvan cinslərinin məhsuldarlığının yüksəldilməsi yolları» AzET Yemçilik Çəmənçilik və Otlaqlar İnstitutunun direktoru Çingiz Əliyev «Yem bitkilərinin məhsuldarlığının artırılmasında yeni texnologiyaların tətbiqi», AzET Baytarlıq İnstitutunun direktoru Səhman Bayramov «Heyvandarlıqda rast gəlinən infeksion və ivazion xəstəlikləri və onlara qarşı mübarizə tədbirləri» respublika süni mayalama mərkəzinin direktoru Ramiq Abbasov «Respublikada süni mayalandırma tədbirlərinin genirşləndirilməsi və Kənd Təsərrüfatı Nazirliyi aparatının heyvandarlığın inkişaf şöbəsinin müdiri Qalib Əbdüləliyev «Heyvandarlığın mövcüd vəziyyəti və seleksiya damazlıq işlərinin yaxşılaşdırılması tədbirləri» mövzularında geniş məruzə etmişlər.

Zona müşavirəsində iştirak edən rayonlarının süni mayalama məntəqələri mütəxəssislərinin gördükləri işlər barədə məlumatları da dinlənilmişdir.

Müşavirəni Qalib Əbdüləliyev yekunlaşdırmış və müşavirənin sonunda müasir heyvandarlıq kömpleksləründə və yüksək məhsuldar heyvan saxlayan kiçik həcmli ailə təsərrüfatlarında qazanılan qabaqcıl təcrübənin video nümayişi təşkil edildi.

**Aslan CƏLİLOV.**
**Foto İ. Vəlizadənindir.**

# Məşğulluq xidməti orqanları ilə işəgötürənlər arasında işin səmərəli təşkili gücləndirilməli

Ötən həftə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Məşğulluq Xidmətinin təsdiq etdiyi qrafikə uyğun olaraq Qəbələ Rayon Məşğulluq Mərkəzi rayonun idarə, müəssisə və təşkilatlarının rəhbərləri və nümayəndələrinin iştirakı ilə dəyirmi masa təşkil etmişdir. Tədbirdə rayon icra hakimiyyətinin məsul işçisi Pərvin Məmmədov iştirak etmişdir.

Tədbirin gündəliyində Azərbaycan Respublikasında müasir mərhələdə dövlət məşğulluq siyasətinin gücləndirilməsi, bu sahədə mövcud olan problemlərin həlli əhalinin səmərəli məşğulluğunun təmin edilməsi kimi aktual bir məsələ dururdu.

Tədbiri rayon məşğulluq mərkəzinin direktoru Elxan Səlimov açaraq iştirakçıları salamlamış və müzakirə edilən məsələ ilə əlaqədar geniş məruzə etmişdir. E. Səlimov məruzəsində qeyd etmişdir ki, dəyirmi masanın təşkilində əsas məqsəd rayon ərazisində fəaliyyət göstərən müəssisə və təşkilatlarla əlaqələrin daha da yaxşılaşması, gücləndirilməsi, əhalinin məşğulluğunun səmərəli təmin olunması istiqamətində qəbul edilmiş qanun və normativ aktlarla işəgötürənlərin tanış edilməsi, habelə dövlət məşğulluq siyasətinin uğurla həyata keçirilməsi sahəsində mövcud problemlər, bu problemlərin aradan qaldırılması yolları barədəə fikir mübadiləsi aparmaqdır.



Məruzəçi ölkədə işsizliyin minimuma endirilməsi məqsədilə müstəqil dövlətimizin qəbul etdiyi qanun və qərarlar, dövlət başçısının imzaladığı sərəncamlar, sahibkarlığın inkişafına göstərilən qayğılar və bununla əlaqədar yeni iş yerlərinin açılması, işsizlərin sosial müdafiəsinin gücləndirilməsi üçün görülən tədbirlər haqqında yığıncaq iştirakçılarına geniş məlumat vermişdir. Həyata keçirilən tədbirlər nəticəsində ötən 12 il ərzində ölkədə 1 milyon 400 min yeni iş yeri açılmışdır.

Rayon məşğulluq mərkəzi əhalinin məşğulluğunun təmin edildməsi sahəsində dövlətin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Məşğulluq xidmətinin sərəncamlarını qərar və göstərişlərini vaxtında və lazımi səviyyədə icra etməyə çalışır. Bu ilin 9 ayında rayon üzrə 610 nəfər işsiz qeydə alınmüış, onlardan 294 nəfəri (59 nəfəri qadındır) işlə təmin olunmuş, 18 nəfərə işsiz statusu verilmiş, 21 nəfərə (7-i qadındır) müavinət təyin edilmiş, 5 nəfər ictimai işə cəlb olunmuş, 17 nəfər isə öz arzularına əsasən peşə kurslarına göndərilmişdir.

E. Səlimov eyni zamanda işəgötürənlərlə mərkəz arasında mövcud olan bəzi problemlər, buraxılan nöqsanlar haqqında da danışmışdır. Qeyd olunmuşdur ki, Məşğulluq haqqında Azərbaycan Respublikası qanunun 17-ci maddəsinə uyğun olaraq hər bir işəgötürən qanunun tələblərini yerinə yetirməyə borcludur. O cümlədən mərkəz də bu istiqamətdə ciddi məsuliyyət daşıyır. Bəzi işəgötürənlər mərkəzlə sıx əməkdaşlıq etmir, bəziləri statistik hesabatları gecikdirir. Bu kimi nöqsanlar yolverilməzdir.

E. Səlimov daha bir sıra problemlərə toxunaraq əmin oldugunu bildirmişdir ki, məşğulluq mərkəzi ilə işəgötürənlər arasında əməkdaşlıq bundan sonra daha da gücləndiriləcəkdir.

Dəyirmi masa tədbiri canlı dialoq şəklində davam etmiş, suallar cavablandırıldmış, işin yaxşılaşdırılması, fəaliyyətin səmərəli təşkili üçün təkliflər səsləndirilmişdir.

Canlı diloqda rayon təhsil şöbəsinin metodisti Kamran Abuşov, meşə təsərrüfatı və bərpası idarəsinin baş muhasibi Sahib Əhmədov, konserv zavodun məsul işçisi Yaqub Əliyev, Qəbələ Quşçuluq ASC-nin məsul işçisi Sahsoltan Şəkərxanov və başqaları daha fəal iştirak etdilər.

Sonda rayon icra hakimiyyətinin məsul işçisi Pərvin Məmmədov çıxış edərək əhalinin məşğulluğu ilə əlaqədar dövlət siyasətinin bu gün aktual məsələ kimi qarşıda durduğundan danışmışdır.

Tədbiri Elxan Səlimov yekunlaşdırdı.

**Nadir ATAKİŞİYEV.**